# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2023-cü ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, energetika naziri Pərviz Şahbazov mayın 26-da Lerik rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların elektrik enerjisi və qaz təchizatı, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, cərimələr, kabelləşmə, yeni transformatorun quraşdırılması, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Lerik, Lənkəran və Masallı rayonlarından olan 21 vətəndaş iştirak edib.

* * *

Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu mayın 26-da Xaçmaz şəhərində gerçəkləşib.

Nazirlikdən bildirilib ki, qəbulda həmçinin mədəniyyət nazirinin müavini Səadət Yusifova, aparat rəhbəri Xanlar Ağalarov və struktur bölmələrin rəhbərləri də iştirak ediblər.

Xaçmaz Şəhər Tarix-Diyarşünaslıq Muzeyində keçirilən qəbulda əsasən Xaçmaz, Quba və Qusar rayonlarından, eləcə də digər bölgələrdən sakinlər iştirak ediblər.

Sakinləri ayrı-ayrılıqda dinləyən nazir bütün müraciətlərin araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

* * *

İqtisadiyyat nazirinin müavini İsmayıllıda vətəndaşlarla görüşüb. İqtisadiyyat Nazirliyindən bildirilib ki, görüşdə vətəndaşların sahibkarlıq fəaliyyətinə güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, əmlak və sair məsələlərlə bağlı müraciətlərinə baxılıb.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov İsmayıllı şəhərində İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbula gələn vətəndaşlar sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, əmlak və sair məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, onlara müraciət etdikləri məsələlərlə bağlı əsaslandırılmış cavab və izahat verilib, araşdırma tələb edən müraciətlər isə baxılması üçün qeydiyyata alınıb.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov mayın 26-da Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda 36 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, həqiqi hərbi xidmətə bərpa, övladının xidmət yerinin müəyyənləşdirilməsi, Vətən müharibəsində iştiraka görə orden və medalla təltif olunma, şəhid və şəhid ailəsi statusunun verilməsi, müharibə veteranı adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətdən möhlət verilməsi və sair məsələlərlə bağlı müraciət ediblər.

Qəbul zamanı vətəndaşların müraciətləri diqqətlə dinlənilib, bir hissəsi yerindəcə həll olunub, araşdırma tələb edən məsələlər qanunvericiliyə uyğun olaraq həll edilməsi məqsədilə qeydiyyata alınıb və müvafiq tapşırıqlar verilib.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və SHXÇDX-nin səlahiyyətlərinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev mayın 26-da Qəbələ Rayon Mərkəzi Xəstəxanasında Qəbələ, Oğuz və İsmayıllı rayon sakinlərini qəbul edib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanovun, Qəbələ, Oğuz və İsmayıllı rayon mərkəzi xəstəxanalarının direktorları, Şəki və Şamaxı filiallarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 26 vətəndaşın müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən müayinə-müalicə, cərrahi əməliyyatlar, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi, dərman təminatı, əlillik məsələləri, iş və əmək münasibətləri ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

Azərbaycan.- 2023.-27 may.- S.6.